


# Ruhun zəfəri, iradənin təntənəsi



***Azərbaycan təmsilçiləri Tokioda keçirilmiş XVI Yay Paralimpiya Oyunlarında uğurlu nəticə nümayiş etdirərək yarışları 163 ölkə arasında 10-cu pillədə tamamlayıblar. 36 nəfərlik komandamız 14 qızıl, 1 gümüş və 4 bürünc medal qazanmaqla milli Paralimpiya tarixində rekorda imza atıblar. Bu, ruhun zəfəri, iradənin təntənəsidir.***

...Qarabağ müharibəsi qazisi olan sumqayıtlı İlham Zəkiyev 1999-cu ildə cəbhə bölgəsində snayperlə başından yaralandıqdan sonra görmə qabiliyyətini itirib və bundan sonra Əməkdar məşqçi Əhməddin Rəcəblinin rəhbərliyi altında cüdo ilə məşğul olmağa başlayıb, ardarda qələbələr qazanıb. 2005-ci ildə Prezident İlham Əliyev artıq Afina Paralimpiya Oyunlarının qalibi və Avropa çempionu kimi şöhrət qazanmış idmançı qazinin toyu münasibətilə ona təbrik məktubu göndərib, İ.Zəkiyevə avtomobil hədiyyə edib. Fədakar idmançı sonra Pekin Paralimpiadasında da qızıl, London Paralimpiadasında isə bürünc medal qazanıb. O, həmçinin üçqat dünya və yeddiqat Avropa çempionu, Bakıda keçirilmiş 1-ci Avropa Oyunlarının qalibidir. İdman uğurlarına görə "Şöhrət" ordeninə və "Əməkdar idman ustası" fəxri adına layiq görülmüş İlham Zəkiyev hazırda 42 yaşında olsa da, Tokioda yenidən böyük əzmkarlıq göstərib və bürünc medal alıb. Özü də dörddə-bir final görüşündə ayaq barmaqlarının sınmasına baxmayaraq, bunu yarımfinalçı rəqibindən gizlədib və ağrıdan qovrulsa da, qələbəni əldən verməyib.

Digər təmsilçilərimiz də Tokioda mətanətlə yarışaraq layiq olduqları zirvələri fəth ediblər. Onların çoxsaylı qızıl medallarına əksər rəqibləri əsl mənada həsəd aparıblar. Paralimpiyaçılarımızdan bir neçəsi bu yarışlarda dünya rekordlarını təzələyib. Ümumiyyətlə, həmyerlilərimizin qələbələri şərəfinə Yaponiya paytaxtında 19 dəfə Azərbaycanın bayrağı qaldırılıb, 14 dəfə Dövlət himnimiz səsləndirilib.

Paralimpiya Oyunlarının cüdo yarışlarında təmsilçilərimiz daha böyük uğur qazanaraq, 6 qızıl və 2 bürünc medalla komanda hesabında 1-ci yeri tutublar. Bu mükafatların tam yarısı - 2 qızıl və 2 bürünc medal Sumqayıt cüdoçularına aiddir. Onlardan Şəhanə Hacıyeva və Vüqar Şirinli qızıl, yuxarıda haqqında bəhs etdiyimiz İlham Zəkiyev və Namiq Abbasov bürünc medalların sahibləridir.

İki ay əvvəl Avropa çempionu olmuş sumqayıtlı atlet Səid Nəcəfzadə Yaponiya paytaxtında uzunluğa tullanma növü üzrə 7,03 metr nəticə göstərərək bürünc medalla kifayətlənib. Bu da böyük uğurdur.

İdmançılarımızın Vətənə qayıtması münasibətilə təntənəli qarşılanma mərasimləri keçirilib. Tokioda qazanılmış yüksək naliyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə təltif olunanlar arasında da sumqayıtlı idmançılar və məşqçi-müəllimlər çoxluq təşkil edirlər. İlham Zəkiyev, Vüqar Şirinli və Şəhanə Hacıyeva 1-ci dərəcəli “Vətənə xidmətə görə”, Namiq Abbaslı və atlet Səid Nəcəfzadə 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordenləri ilə, cüdo üzrə paralimpiya komandasının baş məşqçisi, sumqayıtlı İbrahim İbrahimov, məşqçi-müəllimlər Azad Zahidov və Fərid Ağakişiyev isə “Tərəqqi” medalı ilə təltif ediliblər.

Sumqayıt hər zaman beləcə parlaq idman nailiyyətləri ilə seçilib. Şəhərin rəhbərliyi idmanın inkişafı üçün əlindən gələni əsirgəmir. Ölkəmizin ayrı-ayrı yığma komandalarında sumqayıtlılar çoxdur. Gənclik şəhərinin paralimpiyaçıları da ənənəyə sadiqdirlər. 2008-ci ildə Sumqayıtda açılan, MDB məkanında bütün beynəlxalq standartlara cavab verən ilk Paralimpiya İdman Kompleksi fiziki məhdudiyyəti olan idmançıların yarışlara hazırlanmasında, fəal həyata inteqrasiyasında mühüm rol oynayır. Təsadüfi deyil ki, Tokio paralimpiadasında Azərbaycanı təmsil etmiş idmançıların 8-i Sumqayıtdan idi. Onları milli komandamızın əsas zərbə qüvvəsi də saymaq olar.

İdmana diqqət və qayğının fərəhli nəticələrini çox gözləmək lazım gəlmir. Son paralimpiya oyunları bunu bir daha göstərdi.

***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”nin***
***bölgə müxbiri***